**Pol Stretern**

# KANTLA 90 DƏQİQƏ

İngiliscədən tərcümə:
Çinarə Məhəmməd

qanun nəşriyyatı

Paul Strathern

# KANT
# IN 90 MINUTES

Pol Streternin “Kantla 90 dəqiqə” kitabı klassik fəlsəfənin ən mürəkkəb simalarından biri olan İmmanuel Kantın ideyalarını qısa və anlaşılan şəkildə təqdim etmək məqsədi daşıyır. Bu əsər Kant fəlsəfəsi ilə yeni tanış olmağa başlayanlar üçün əvəzolunmaz vasitədir və onun “saf ağlın tənqidi”, “təcrübi ağıl” və “əxlaqi imperativ” kimi çətin anlayışlarını sadə, lakin intellektual səviyyədə izah edir.

Stretern Kantın şəxsi həyatı, dövrünün tarixi-fəlsəfi konteksti və əsas düşüncə istiqamətləri arasında aydın körpü yaradır. Yumorla müşayiət olunan yazı tərzi sayəsində kitab həm maarifləndirici, həm də oxunaqlıdır. Fəlsəfə tarixi ilə maraqlanan oxucular üçün bu kitab Kantın dünyasını dərk etmək baxımından əlverişli başlanğıcdır.

# MÜNDƏRİCAT


Giriş ........................................................... 7

Kantın həyatı və əsərləri ...................................... 9

Əlavə məlumat ................................................. 47

Kantın əsərlərindən hissələr .............................. 58

Əhəmiyyətli fəlsəfi tarixlərin xronologiyası ...... 70

Kantın həyat xronologiyası ................................ 74

Kant dövrünün xronologiyası............................ 76

Tövsiyə olunan kitablar .................................... 78

# Giriş

Bir şeyin qeyri-mümkün olması kiminsə bunu etməyə çalışmayacağı anlamına gəlmir. Kant nəinki buna cəhd etdi, o həm də mümkün olmayanı mümkün etməyi bacardı. Yum fəlsəfəni və metafizik sistem qurmaq imkanlarını məhv etdikdən sonra Kant möhtəşəm bir metafizik sistem yaratdı. Yumu təkzib etməyə çalışan Kant, xoşbəxtlikdən, onun nüfuzedici skeptik ruha malik "*İnsan təbiəti haqqında traktatı*"nı yox, yalnız "*İnsanın anlama qabiliyyəti üzrə sorğu*" əsərini oxumuşdu. Kant bu traktatı oxusaydı, çox güman ki, o heç bir sistem yaratmazdı. Belə olması çox böyük təəssüf doğuracaq və on doqquzuncu əsr alman fəlsəfə professorlarının bütün nəslini işsiz qoymuş olacaqdı.

Kantın sistemi Nyutonun cazibə qüvvəsi haqqında ideyasına bənzəyir. Bu, son cavab deyil, amma o hələ də dünyanı necə gördüyümüzə yaxındır. Dünyaya Kantın prizmasından baxsanız, çox səhv et-

məzsiniz. Yumun fəlsəfəsi mahiyyət etibarilə sadədir: o, insanın fəlsəfi durumunu yalnız özünü reallıq kimi qəbul edən, başqalarının mövcudluğunu şübhə altına alan solipsizmə endirir. Kant səhvin aldadıcı qumlarının üzərində elə möhtəşəm və mürəkkəb bir qum qalası tikdi ki, bütün tətiliniz boyunca vedrə və kürəklə onunla məşğul olmaqdan zövq ala bilərsiniz.

Kantın həyatına gəlincə, onun həyatı haqqında nəsə demək çətindir. Belə ki, sözün əsl mənasında onun həyatı yox idi (əqlində olan həyatdan başqa). Həyatı boyu onun başına, həqiqətən, maraqlı heç nə gəlməmişdi. Ancaq onun monoton görünən həyatının təsviri heç də darıxdırıcı görünmür.

## Kantın həyatı və əsərləri

İmmanuel Kant 22 aprel 1724-cü ildə Almaniyanın təcrid olunmuş Şərqi Prussiya vilayətinin paytaxtı olan Baltikyanı Köniqsberq (indiki Rusiya ərazisindəki Kalininqrad) şəhərində anadan olmuşdur. Kantın əcdadları əvvəlki əsrdə Şotlandiyadan gəlmişdilər və ola bilər ki, onlar XVII əsrdə yaşamış məşhur keşiş Endrü Kantın qohumları idilər. Məhz bu keşişin adı “cant” sözü üçün başlanğıc olmuşdur, bu söz isə müəyyən bir insan qrupunun istifadə etdiyi xüsusi danışıq tərzini ifadə edir. Maraqlısı odur ki, bu xüsusiyyət filosof Kantda da çox güclü şəkildə özünü göstərmişdir.

Kantın doğulduğu dövrdə Şərqi Prussiya əhalinin sayını yarıdan çox azaldan dağıdıcı müharibələrdən və vəba xəstəliyindən sonra bərpa olmağa çalışırdı. Kant dindar yoxsulluq mühitində böyüyürdü. O, beş bacı və bir qardaşdan ibarət olan ailənin dördüncü

övladı idi. Kantın şotlandiyalı atası dəri qayış kəsicisi idi və həmişə zarafatla deyirdi ki, mən nə evdə, nə də işdə "heç vaxt hər iki ucu bir-birinə calaya bilmirəm." Kant həmişə sevimli, lakin maddi cəhətdən çətinlik çəkən atasına hörmətlə yanaşır və deyilənə görə, uşaqlıqda atasının qoşqular üçün dəri parçaları ustalıqla kəsməsini seyr etməkdən həzz alırdı. Bununla belə, filosof və psixoloq Ben-Ami Şarfştaynın fikrincə, atasının çevikliyi işığında "Kantın əllərinin çox yöndəmsiz olması diqqət çəkir".

Bunun olub-olmamasından asılı olmayaraq, Kantın həyatının erkən vaxtlarında ona əsas təsir edən, şübhəsiz ki, anası idi. Xanım Kant, deyilənə görə, "fitri müdrikliyə" malik tamamilə savadsız bir alman qadını idi. Məhz onun bu xüsusiyyəti Manelçen ("kiçik Manni") adlandırdığı oğlu İmmanuelə çox böyük təsir göstərmişdi. Kantın anası onu şəhərdən kənara – çöllərə gəzintiyə çıxarır, ona bitkilərin və çiçəklərin adlarını deyirdi. Gecələr ona ulduzları göstərir, onlara və bürclərə ad verirdi. O, dindar qadın idi, onun sevgi dolu, amma eyni zamanda, sərt davranışları oğlunun əxlaqi xarakterinin formalaşmasına kömək edəcəkdi. Faktlara və əxlaqi öhdəliklərə bu ikili diqqət bütün həyatı boyu Kantda qalacaq və onun fəlsəfəsində böyük rol oynayacaqdı.